

Aysel Nazim

## Qurban olum

*Könlümün ulu xətrisən,*
*Şeirimin uca sətrisən.*
*Ruhumun layla ətrisən,*
*Şuşam, sənə qurban olum!*

*Bax ömrümün hər ayına,*
*Gəl bəxtimin sarayına,*
*Bu torpağın harayına,*
*Yetən, sənə qurban olum!*

*Zaman baxır şahid kimi,*
*Durmuşam mücahid kimi.*
*Səngərlərdə şəhid kimi*
*Bitən, sənə qurban olum!*

*Vurğunam, tanı halımdan,*
*Tez qovuşaq torpağında.*
*Qarabağ tək xəyalımdan,*
*Ötən sənə qurban olum!*

*Qarabağın baş tacısan,*
*Dərdlərimin əlacısan.*
*Könlümüzün sultanısan.*
*ŞUŞAM sənə qurban olum!*

## Qəlbimin aynası

*Daim həqiqətə vermişəm könül,*
*Hər sözüm sinəmdə çiçəkləyən gül.*
*Ruhum kəpənək tək qanadı yüngül,*
*Gözlərim qəlbimin aynası olub.*

*Duyğular söz dünyamın çəmənzarıdır,*
*Ürəyim həmişə haqqa sarıdır.*
*Könlüm əzəl gündən eşq nübarıdır,*
*Gözlərim qəlbimin aynası olub.*

*Tanrıdan almışam könül nurumu,*
*Allahım hifz edər hər uğurumu.*
*Daim uca tutdum öz qürurumu,*
*Gözlərim qəlbimin aynası olub.*

ədalət

2021.- 2 mart.- S.6.